***TƏRBİYƏ MƏSƏLƏLƏRİ***
***EDUCATIONAL ISSUES***
***ВОПРОСЫ ВОСПИТАНИЯ***

*UOT 37.01*

***Lalə Akif qızı Məmmədli***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
https://orcid.org/ 0000-0003-0686-3627
E-mail: lale23@mail.ru
*https://doi.org/10.69682/arti.2026.93(3).119-122*

# FƏAL HƏYAT MÖVQEYİNƏ YİYƏLƏNMƏYİN VACİBLİYİ

***Lala Akif Mammadly***
*leading specialist of the Institute of Education of the Republic of Azerbaijan,*
*doctor of philosophy in pedagogy*

# THE IMPORTANCE OF MAKING AN ACTIVE LIFE POSITION

***Лала Акиф гызы Мамедли***
*ведущий специалист Института Образования Азербайджанской Республики,*
*доктор философии по педагогике*

# ВАЖНОСТЬ ВЫБОРА АКТИВНОЙ ЖИЗНЕННОЙ ПОЗИЦИИ

**Xülasə**. Tələbələrdə fəal həyat mövqeyinin təşəkkülündə mühüm amillərdən biri, bu formalaşmanın qanunauyğunluqlarını və prinsiplərini özündə ehtiva edən vahid pedaqoji prosesdir. Pedaqoji prosesin məzmun baxımından tamlığını, toplanan sosial təcrübənin təhsilin məqsəd və məzmununda ifadəsini tapması ilə təmin edilir.
***Açar sözlər***: *fəal, fəal həyat, fəal həyat mövqeyi, tələbələr, fəal həyat mövqeyinin formalaşdırılması*

**Abstract.** One of the key factors in developing an active lifestyle in students is a unified pedagogical process that includes the patterns and principles of this development. The comprehensiveness of meaningful pedagogy is ensured by the fact that accumulated social experience is expressed in the goals and content of education.
***Keywords****: activity, active life, active lifestyle, students, developing an active lifestyle*

**Аннотация**. Одним из важных факторов формирования активной жизненной позиции у учащихся является единый педагогический процесс, включающий закономерности и принципы этого формирования. Полнота содержательной педагогики обеспечивается тем, что накопленный социальный опыт находит выражение в целях и содержании обучения.
***Ключевые слова:*** *активность, активная жизнь, активная жизненная позиция, учащиеся, формирование активной жизненной позиции*

Sovet hakimiyyəti illərində “fəal həyat mövqeyi” anlayışından təhsil məqsədi olaraq faydalanırdılar. O zamanlar həyatda fəal mövqe tutmağı bacaran, ölkədə həyatı yaxşılaşdırmağı proqnazlışdırmağı bacaran, ictimai işlərdə fəallıq göstərən, yaradıcı, təşkilatçılıq qabiliyyətinə yiyələnmiş şəxs nümunə kimi götürülürdü. İyirminci yüzilliyin 70-ci illərində “fəal həyat mövqeyi” ifadəsi daha dəbdə idi. Həmin mövzuda əsərlər, elmi və kütləvi səpgili məqalələr, dissertasiyalar yazılır, konfranslar keçirilirdi. 1979-ci ildə Bakıda keçirilmiş “Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri” mövzusunda o vaxtkı SSRİ-ni əhatə edən, yüzlərlə alimin, rəhbər işçinin, fəalın qatıldığı ümumittifaq konfransı deyi-

lənlərə əyani sübutdur. Konfransda əsas məruzə ilə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev çıxış etmişdi.

Fəal həyat mövqeyinə yiyələnmiş bir şəxsin konkret hansı inanclara malik olduğunu başa düşmək aktual pedaqoji problem kimi diqqət mərkəzinə gəlir.

A.O.Antonova yazır: "Gələcək təhsil psixoloqunun proaktiv həyat mövqeyi dedikdə, onun təşkilatçı və lider kimi davranışına və fəaliyyətinə tənzimləyici təsir göstərən sosial və mənəvi münasibətlərin, inancların və vərdişlərin sabit formada təzahürü nəzərdə tutulur. Gələcək təhsil psixoloqunun proaktiv həyat mövqeyi onun təlim və təhsilinin bütün illərində müəyyən çətinliklərin aradan qaldırılması, peşəkar bacarıq və təcrübəyə yiyələnməsi nəticəsində inkişaf edir. Aktiv həyat tərzinin əsasını fərdin sabit dünyagörüşü və sosial məsuliyyətə münasibətində möhkəm əqidəsi təşkil edir" (1).

S.Vəliyev tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılmasının əhəmiyyətindən və vacibliyindən danışarkən yazır: "Fəal mövqe şəxsiyyətin əqidəsini, onun iradə zənginliyini, ideya-mənəvi düşüncələrini və keyfiyyətlərini ifadə edərək, insana yeniyeni məsələləri irəli sürüb həll etməkdə, çətin şəraitdə özünü itirməməkdə, qətiyyətli hərəkət etməkdə, öz üzərinə məsuliyyət götürməkdə kömək edir. Fəal mövqe bəşəriyyətin hazırladığı bütün mənəvi sərvətlər ilə öz daxili aləmini daim zənginləşdirməyi tələb edir" (2).

Tələbələrdə fəal həyat mövqeyini səmərəli şəkildə formalaşdırmaq üçün müəllim aşağıdakı məsələləri aydın təsəvvür etməlidir:

1."Fəal həyat mövqeyi" anlayışının mahiyyətini, məzmununu və başlıca komponentlərini bilmək.

2. Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılmasının nəzəri və metodoloji əsasları (yanaşmalar, nümunələr, prinsiplər) barədə zəruri məlumatlara məlum olmaq.

3. Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması zamanı istifadə olunan metodların, formaların və modelin səmərəliliyinə əmin olmaq.

4. Tələbələrin vətəndaşlıq mövqeyinin formalaşdırılması üçün elmi və metodoloji tövsiyələr irəli sürmək.

5. Tələbələrdə aktiv həyat mövqeyinin inkişaf etdirilməsi məqsədilə təhsil prosesinin təşkili metodlarını və formalarını müəyyənləşdirmər, eyni zamanda onun modelini işləyib hazırlamaq.

Müasir dövrdə işəgötürənlər bu və ya digər mütəxəssisin proaktiv yanaşmasına diqqət yetirirlər. Həmin yanaşma yeni ideyalara, innovativ yanaşmalara və düzgün qərarların irəli sürülməsinə imkan verir. Bütün bunlar da iqtisadi və sosial inkişafa şərait yaradır. Deməli, proaktiv yanaşma tələbələrin peşəkar və sosial uğurunun çox mühüm amillərindəndir.

Gənc nəsildə, o cümlədən tələbələrdə fəal həyat mövqeyinin formalaşmasında və inkişaf etdiriıməsində hər bir şəxs, hər bir təsisat maraqlı olmalı, bu işə öz köməyini göstərməlidir. Pedaqogika üzrə fəlsəfə doktoru, dosent E.R. Hüseynovanın qənaətincə, "Şəxsiyyəti yetişdirəcək müəllim özü də nümunəvi olmalı, bir şəxsiyyət kimi seçilməlidir. . Yeni pedaqoji təfəkkür şəraitində cəmiyyətin qarşısında duran ümdə vəzifələrin həyata keçirilməsi ahəngdar və hərtərəfli inkişaf etmiş fəal şəxsiyyətin formalaşdırılmasından çox asılıdır. Azərbaycan mütəfəkkirləri, klassik və müasir pedaqoqlar, maarifpərvərlər şəxsiyyətin başlıca cəhətlərini onun cəmiyyətdəki münasibət və fəaliyyətində görmüşlər. Bu, təsadüfi deyil, təbiidir. Münasibətlər şəxsiyyətin, o cümlədən təhsilalanların həyat təcrübəsinin nəticəsi olaraq, onların fəaliyyətini və daxili hisslərini müəyyən edir. Müasir dövrdə pedaqogika və psixologiya elmlərinin, fənlərin tədrisi metodikalarının, fəal və interaktiv təlim metodlarının, təhsildə innovasiyaların nailiyyətlərinin təlim prosesinə tətbiqi nəticəsində şagird nailiyyətləri təmin olunur. Şagird şəxsiyyətinin inkişafına öz müsbət təsirini göstərən ictimai təsisatlardan, təlim-tərbiyə müəssisələrindən, məktəbdənkənar uşaq müəssisələrindən, mədəni-maarif ocaqlarından, ictimai təşkilatlardan, KİV-dən, cəmiyyətin əsas hüceyrəsi olan ailənin köməyindən səmərəli istifadə olunması tərbiyəvi, təhsilləndirici və inkişafetdirici imkanları gücləndirir. Şəxsiyyətin fəal mövqeyinin formalaşdırılması üzrə işintarixi-pedaqoji səciyyəsini vermək üçün, təbii ki, mövcud ədəbiyyatı izləmək lazımdır" (3, s. 27).

Müəllifin fikrincə, *səxsiyyətin fəal mövqeyinin formalaşdırılması üzrə işin tarixi-pedaqoji səciyyəsini verilməlidir. Bunun üçün, söz yox ki, mövcud ədəbiyyatı izlənməlidir.*

Tələbələrin həyatının vətəndaş və mənəvi tərbiyə məktəbi olması, təhsil aldığı ali məktəbin, şəhərin, ölkənin həyatında fəal iştirak etməsi lazımdır. Onlar universitetin elmi və ictimai

həyatında, həmçinin rayon, şəhər və respublika tədbirlərdə fəal iştirak etməklə təşkilatçılıq bacarıqlarına sahiblənirlər. Təşkilatçılıq bacarığına malik olma fəal həyat mövqeyi sistemində son dərəcə önəmli rol oynayır.

Fəal həyat mövqeyinin əsasında fərdin dünyagörüşü dayanır. Onun başlıca struktur komponentlərini hərtərəfli inkişaf etmiş biliklər, əqidələr, fərdi münasibətlər, sosial və şəxsi əhəmiyyətli xüsusiyyətlər, yüksək emosional sabitlik, cəmiyyətin rifahı naminə hərəkət etməyə hazırlıqdır.

Tələbələrin fəal həyat mövqeyinin formalaşmasının göstəriciləri aşağıdakılardır: 1) fəaliyyətə əsaslanan; 2) emosional; 3) iradi.

***Fəaliyyətə əsaslanan meyarın göstəriciləri***: məqsədin müəyyənləşdirilməsi, planlaşdırmaq və qarşıda dayanan vəzifələrə nail olmaq qabiliyyəti; sosial fəaliyyətləri həyata keçirməkdə maraqlı olmaq; ictimai-siyasi hadisələrlə tanış olmaq, onlara münasibət bildirmək bacarığı; təşkilatçılıq bacarığı və təşəbbüskarlıq, vətəndaşlıq aksiyalarında iştirak etmək istəyi, cəmiyyətdəki həyat şəraitinə uyğun müxtəlif fəaliyyətlərdə məsuliyyət və fəallıq.

***Emosional meyarın göstəriciləri:*** vətəndaşlıq borcunu anlamaq və onu yerinə yetirməyə səy; xoşagəlməz işlərə, əxlaqsız hərəkətlərə, qanuna, birgəyaşayış qaydalarına hörmətsizlik hallarına qarşı dözümsüzlük; sosial əhəmiyyətli fəaliyyətlərdə iştirakdan məmnunluq; gələcək peşəkar fəaliyyətə müsbət münasibət.

***İradi meyarın göstəriciləri***: mənəvi dəyərlərə əsaslanan vətəndaş davranışının seçimini və zəruriliyini qiymətləndirməkdə iradi səylərin olması; şəxsi maraqları kollektiv maraqlara tabe etmək bacarığı; cəmiyyətdə hökm sürən davranış qaydalarını və normalarını gözləmək; özünütəhsil və özünütərbiyə tələbat; öz qüvvələrini səfərbər etmək bacarığı; özünə və başqalarına münasibətdə tələbkarlıq.

Tədqiqatlardan görünür ki, bəzi tələbələrdə vətəndaş mövqeyini inkişaf etdirilməsi səviyyəsi lazımınca deyildir. Aşağıdakı ziddiyyətlər diqqət mərkəzinə gəlir:

– fəal vətəndaş mövqeyinə yiyələnmiş şəxslərə ehtiyacı və onların sosial baxımdan dəyərli fəaliyyətlərin təşkili və vətəndaş mövqeyini nümayiş etdirməkdə müsbət təcrübəsinin tələb olunan şəkildə olmaması;

– yeni pedaqoji təfəkkür şəraitində vətəndaş mövqeyinə malik ali məktəb məzunlarına ehtiyacı və təhsil müəssisəsində oxuduqarı zaman onların vətəndaş mövqeyini formalaşdırmağın məzmununun, metod, forma və vasitələrinin yüksək səviyyədə inkişafdan qalması.

Haqqında söz açılan ziddiyyətlər hesaba alınmaqla, tədqiqat problemini formalaşdırmaq mümkündür: tələbələrin vətəndaş mövqeyinin formalaşdırılması üçün pedaqoji modelin hazırlanması və tətbiqi üçün təşkilati şərtlərin müəyyənləşdirilməsinin vacibliyi.

Biz tələbələrin vətəndaş mövqeyinin formalaşmasını, müəllimlər və tələbələr arasında məqsədyönlü pedaqoji qarşılıqlı əlaqə prosesi kimi nəzərdən keçiririk. Bu fikir baxımından fəal həyat mövqeyi tələbələrin cəmiyyətə və dövlətə, insanlara və ictimai-siyasi hadisələrə şüurlu münasibəti olaraq diqqət mərkəzinə gəlir, vətəndaş davranışında özünü büruzə verir, vətəndaş əqidəsinə əsaslanır.

Hazırda cəmiyyətin fəal həyat mövqeyinə yiyələnmiş mütəxəssislərə ehtiyacı vardır. Bu, vətəndaşlıq təhsilinə, mənəvi və hüquqi davranış, vətənə sevgi və dövlət maraqlarının qorunması kimi anlayışlara müsbət münasibətlərin yüksək səviyyəssini tələb edir.

Tələbələr müstəqil həyata qədəm qoyarkən, mütəxəssis kimi fəaliyyətə başlayarkən və bu zaman uğurlara imza atmaq, fəal həyat mövqeyinə yiyələnmək üçün təkcə fundamental və peşəkar biliklərlə silahlanmaları hələ azdır. Onlar eyni zamanda vətəndaş hüquq və azadlıqları, onları qorumaq, özünüidarəetmədə iştirak etmək bacarıqları, qarşılarına çıxan problemləri həll etmək üçün birləşmək qabiliyyəti və s. barədə biliklərə sahiblənməlidirlər.

**Problemin aktuallığı**. Həm şagirdlərin, həm də tələbələrin fəal həyat mövqeyinə yiyələnmələri vacibdir.

**Problemin yeniliyi**. Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması kimi mühüm problemin önəmli məsələləri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik məsələləri.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

## Ədəbiyyat


1. Антонова, О.А. Формирование активной жизненной позиции у будущего педагога-психолога в гуманитарном вузе: диссертация ... кандидата педагогических наук. .- Казань, 2009. - 305 с.
2. Vəliyev, S. Məktəblilərdə fəal həyat mövqeyinin formalaşdırılması haqqında // -Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, 2020. №2, s. 65-69
3. Hüseynova, E.R. Şəxsiyyətin fəal mövqeyinin inkişaf etdirilməsinin tarixi-pedaqoji səciyyəsi // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi əsərləri, 2008. № 1, s. 27-28
4. Сидоренко О. А. Социально-культурная деятельность как фактор формирования активной жизненной позиции лиц, оставшихся без работы: дис. ... канд. пед. наук. Тамбов, 2007. 256 с.


**Redaksiyaya daxil olub**: 01.05.2026